Azərbaycan.- 2023.- 12 dekabr, № 271.



# Xatirəsi hər zaman uca tutulacaq

**Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyev unikal biliyə, qeyri-adi yaddaşa malik fenomenal şəxsiyyət idi.**

Dünya liderləri Heydər Əliyevin ən güclü siyasətçilərdən biri olduğunu etiraf edirdilər. Ulu Öndər eyni zamanda idarəetmənin ustadı, dünya siyasətinin kamil bilicisi, uzaqgörən və mahir diplomat idi. Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanda milli ideologiyanın, azərbaycançılıq məfkurəsinin yaradılmasının banisi olmuşdur. Uca Tanrı Azərbaycan xalqını ən çətin və ağır günlərdən qurtarmaq üçün Heydər Əliyevi xilaskar kimi seçmişdir.

1969-cu ilə qədər Azərbaycan sovet respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Ulu Öndər sovet Azərbaycanına rəhbərliyə başladıqdan sonra respublikada sənaye, kənd təsərrüfatı sürətlə inkişaf etməyə başladı, çətin sosial vəziyyətdə yaşayan azərbaycanlıların həyat səviyyəsi və rifah halı yaxşılaşdı. SSRİ-nin müttəfiq respublikaları arasında Azərbaycan sosial-iqtisadi cəhətdən ön sıralara yüksəldi.

Heydər Əliyev qətiyyətli lider, eyni zamanda Azərbaycan xalqına qarşı törədilmiş haqsızlığa, zülmə qarşı mübarizə aparmış böyük şəxsiyyət idi. 1990-cı ilin yanvarın 20-də sovet qoşunları Bakı şəhəri və bir sıra rayonlarımızda azərbaycanlılara qarşı qətliam törətdilər. Səhərisi gün, yanvarın 21-də həyatını təhlükə altına ataraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn Ulu Öndər hadisənin təşkilatçılarını ittiham edərək cəsarətli bəyanat verdi. Sovet rəhbərliyinin ikiüzlü və riyakar siyasətinə etiraz əlaməti kimi Heydər Əliyev 1991-ci ilin iyul ayında Kommunist Partiyasının sıralarını tərk etdi.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda ictimai-siyasi vəziyyət çox ağır durumda idi, ölkə parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Qərbdə Azərbaycanla bağlı məkrli planlar hazırlanırdı. O zamanlar hakimiyyətdə olanların səriştəsizliyi ölkəmizi ağır duruma sürükləmiş, AXC-Müsavat cütlüyü xalqımızı çıxılmaz vəziyyətə salmışdı. Ermənistan torpaqlarımızı işğal edir, hakimiyyətdə olanlar isə ölkəni talamaqla məşğul olurdular.

Azərbaycan xalqı başa düşürdü ki, ölkəni bu ağır durumdan yalnız Heydər Əliyev xilas edə bilər. Ona görə də xalqın haqlı tələbi ilə Heydər Əliyev Bakıya gəldi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinin sədri seçildi və iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Ulu Öndər Gəncədə baş vermiş silahlı üsyanın və ölkədə vətəndaş müharibəsinin qarşısını aldı. 1993-cü il oktyabrın 3-də Prezident seçildikdən sonra güclü Azərbaycan dövlətinin və xalqımızı rifaha aparan yolun təməli qoyuldu. Ölkəmiz bütün sahələrdə böyük inkişaf mərhələsinə qədəm qoydu. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan öz müstəqilliyini qorudu, güclü dövlətçiliyin əsası qoyuldu, böyük iqtisadi islahatlara başlanıldı. Məhz Ümummilli Liderin zəkası, müdrikliyi dövləti, xalqı xoşbəxt gələcəyə apardı. Ulu Öndər milli dövlətçilik ənənələrini bərpa etdi.

Heydər Əliyev Prezident seçildikdən sonra bütün qüvvələri bir komandanlıq altında birləşdirdi və Azərbaycan Ordusu Füzuli istiqamətində uğurlu əməliyyatlar keçirərək rayonun bir sıra kəndlərini işğaldan azad etdi. Bundan sonra Ermənistan rəhbərliyi Azərbaycanla atəşkəs haqqında razılığa gəlməyə məcbur oldu.

1994-cü ilin oktyabrında Ulu Öndərin müdrik və qətiyyətli siyasəti nəticəsində Azərbaycanla 6 dövlətin 10 nəhəng neft şirkəti arasında "Əsrin müqaviləsi" imzalandı. Bu, yeni müstəqillik əldə etmiş, Ermənistanla müharibə şəraitində olan Azərbaycan üçün böyük uğur idi. Bu müqavilənin imzalanması Heydər Əliyev şəxsiyyətinə, böyük siyasətçi və lider olmasına inamdan irəli gəlirdi. Bu tarixi hadisədən bir neçə il sonra neftimiz dünya bazarına çıxarıldı və Azərbaycan iqtisadiyyatının yüksəlişi yeni inkişaf mərhələsinə qədəm qoydu. Yeni müəssisələr yaradıldı, vətəndaşlarımızın sosial rifahı hər il yaxşılaşmağa başladı.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətinə və xalqına göstərdiyi misilsiz xidmətlər ölçüyəgəlməzdir. Əsrlər ötəcək, Azərbaycan dövləti əbədi yaşayacaq və xalqımız Ulu Öndər Heydər Əliyevi daim yad edəcək və xatirəsini uca tutacaq.

**Kamilə ƏLİYEVA,**
***Milli Məclisin deputatı***